# REGİONAL İNKİŞAF SİYASƏTİNİN İNSTİTUSİONAL MEXANİZMLƏRİNİN GÜCLƏNDİRİLMƏSİ

**Rəşid Rövşən MƏMMƏDLI**
Bakı dövlət universiteti, doktorant
E-mail: reshidmemmedli9@gmail.com

***Received:*** *7 February 2026* ***Revised:*** *18 February 2026* ***Accepted:*** *20 April 2026*

**UOT** 332.1 **DOİ:**https://doi.org/10.32010/UWAI2701

**Xülasə:** Məqalədə regional inkişaf siyasətinin institusional mexanizmlərinin gücləndirilməsi məsələsi nəzəri və praktiki aspektlərdə tədqiq edilmişdir. Tədqiqatın əsas məqsədi regional inkişaf siyasətinin institusional əsaslarını təhlil etmək, mövcud idarəetmə və tənzimləmə mexanizmlərinin effektivliyini qiymətləndirmək və onların təkmilləşdirilməsi istiqamətində elmi əsaslandırılmış təkliflər irəli sürməkdən ibarətdir. Tədqiqat çərçivəsində regional iqtisadiyyat nəzəriyyələri əsasında sosial-iqtisadi inkişafın məkan üzrə diferensiasiya səbəbləri araşdırılmış, dövlətin regional siyasətinin həyata keçirilməsində institusional mexanizmlərin rolu qiymətləndirilmişdir.Azərbaycan üzrə aparılmış statistik və struktur təhlil göstərir ki, iqtisadi fəaliyyətin və investisiya axınlarının əsasən paytaxt regionunda cəmləşməsi regionlararası sosial-iqtisadi fərqlərin hələ də aktual olaraq qalmasına səbəb olur. Bu baxımdan regional inkişaf siyasətinin institusional mexanizmlərinin gücləndirilməsi, regional idarəetmə sisteminin təkmilləşdirilməsi, investisiya təşviqi alətlərinin genişləndirilməsi və qeyri-neft sektorunun regionlarda inkişafının stimullaşdırılması mühüm əhəmiyyət kəsb edir.Tədqiqatın nəticələri göstərir ki, regional inkişaf siyasətinin səmərəliliyinin artırılması üçün institusional islahatların həyata keçirilməsi, regional idarəetmə strukturlarının gücləndirilməsi, dövlət və özəl sektor arasında əməkdaşlığın genişləndirilməsi və innovasiya yönümlü inkişaf modelinin tətbiqi zəruridir. Bu istiqamətdə həyata keçirilən tədbirlər regional iqtisadiyyatın balanslı inkişafına və milli iqtisadiyyatın dayanıqlı və inklüziv artımının təmin edilməsinə xidmət edir.
**Açar sözlər:** regional inkişaf, sosial-iqtisadi struktur, regional siyasət, investisiya, iqtisadi şaxələndirmə, balanslı inkişaf.

## Giriş

Müasir mərhələdə sosial-iqtisadi inkişafın regional strukturunun formalaşdırılması və tənzimlənməsi məsələsi dövlət iqtisadi siyasətinin əsas prioritet istiqamətlərindən biri kimi çıxış edir. Qlobal iqtisadi transformasiyalar, regional disbalansların dərinləşməsi, urbanizasiya proseslərinin sürətlənməsi və istehsalın məkan üzrə qeyri-bərabər paylanması regional inkişafın effektiv idarə olunmasını zəruri edir. Bu baxımdan regional strukturun optimallaşdırılması və onun tənzimlənmə mexanizmlərinin təkmilləşdirilməsi sosial sabitliyin, iqtisadi təhlükəsizliyin və dayanıqlı inkişafın təmin edilməsində mühüm rol oynayır. Regional iqtisadiyyat nəzəriyyəsinə görə, iqtisadi fəaliyyətin məkan üzrə paylanması təbii resurslar, əmək potensialı, infrastruktur təminatı və institusional mühit kimi amillərin qarşılıqlı təsiri nəticəsində formalaşır. Lakin bazar mexanizmləri hər zaman regionlararası balanslı inkişafı təmin etmir və nəticədə ərazi fərqləri, gəlir səviyyəsində qeyri-bərabərlik, investisiya axınlarında konsentrasiya və sosial infrastrukturun qeyri-bərabərliyi meydana çıxır. Bu şəraitdə dövlətin regional siyasəti və tənzimləyici alətləri xüsusi əhəmiyyət kəsb edir [1].

Azərbaycan Respublikasında regionların sosial-iqtisadi inkişafının təmin olunması məqsədilə ardıcıl dövlət proqramları həyata keçirilmişdir. Xüsusilə regionların sosial-iqtisadi

inkişafı üzrə qəbul edilmiş dövlət proqramları ərazilərin iqtisadi potensialının səfərbər edilməsinə, infrastrukturun yenilənməsinə və sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə yönəlmişdir. Bununla yanaşı, 2021–2030-cu illər üçün müəyyən edilmiş Milli Prioritetlər sənədində balanslı regional inkişaf və iqtisadi artımın inklüziv xarakter alması əsas strateji istiqamətlərdən biri kimi göstərilmişdir. Regional strukturun tənzimlənməsi mexanizmləri fiskal siyasət, investisiya təşviqi, subsidiya və güzəştlər sistemi, infrastruktur layihələrinin prioritetləşdirilməsi, dövlət-özəl tərəfdaşlığı mexanizmləri və institusional islahatlar vasitəsilə reallaşdırılır. Eyni zamanda beynəlxalq təcrübə göstərir ki, regional inkişaf siyasətinin effektivliyi yalnız maliyyə resurslarının bölgüsü ilə deyil, həm də innovasiya potensialının artırılması, klaster yanaşmasının tətbiqi və yerli özünüidarəetmə institutlarının gücləndirilməsi ilə şərtlənir [2].

Müasir iqtisadi nəzəriyyələr, xüsusilə yeni iqtisadi coğrafiya yanaşması regionlararası fərqlərin bazar qüvvələri ilə yanaşı, institusional və struktur amillərlə izah olunduğunu göstərir. Bu isə regional strukturun formalaşdırılmasında dövlət müdaxiləsinin məqsədyönlü və sistemli xarakter daşımasını tələb edir. Əks halda iqtisadi aktivliyin müəyyən mərkəzlərdə cəmləşməsi periferik ərazilərin geriləməsinə və sosial gərginliyin artmasına səbəb ola bilər. Beləliklə, sosial-iqtisadi inkişafın regional strukturunun tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi məsələsi həm nəzəri, həm də praktik baxımdan aktualdır. Mövzunun aktuallığı regional disbalansların aradan qaldırılması, iqtisadi resursların səmərəli yerləşdirilməsi və dayanıqlı inkişaf modelinin formalaşdırılması zərurəti ilə şərtlənir. Bu məqalənin məqsədi sosial-iqtisadi inkişafın regional strukturunun formalaşma xüsusiyyətlərini təhlil etmək və mövcud tənzimləmə mexanizmlərinin təkmilləşdirilməsi istiqamətlərini elmi əsaslandırmaqdan ibarətdir [3].

Regional inkişaf nəzəriyyələri iqtisadi fəaliyyətin məkan üzrə paylanmasının səbəblərini və nəticələrini izah etməyə yönəlmişdir. Klassik regional iqtisadiyyat nəzəriyyəsinə görə, regionlararası fərqlər istehsal amillərinin yerləşməsi, nəqliyyat xərcləri, bazara çıxış imkanları və resurs təminatı ilə bağlıdır. Bu yanaşma iqtisadi fəallığın təbii-coğrafi və bazar amilləri əsasında formalaşdığını göstərir. XX əsrin sonlarından etibarən yeni iqtisadi coğrafiya nəzəriyyəsi regionlararası inkişaf fərqlərini daha sistemli şəkildə izah etməyə başlamışdır. Bu nəzəriyyəyə görə, iqtisadi mərkəzlərin formalaşması miqyas effekti, aglomerasiya üstünlükləri və bazar ölçüsü ilə şərtlənir. Nəticədə iqtisadi aktivlik müəyyən mərkəzlərdə cəmləşir, periferik ərazilər isə nisbətən zəif inkişaf edir. Bu proses regional disbalansların yaranmasına səbəb olur [4].

Regional strukturun tənzimlənməsi mexanizmləri isə bazar uğursuzluqlarının aradan qaldırılmasına yönəlir. Dövlət müdaxiləsi fiskal alətlər, subsidiya və investisiya təşviqi mexanizmləri, infrastruktur layihələri və institusional islahatlar vasitəsilə həyata keçirilir. Bu baxımdan regional siyasətin əsas məqsədi iqtisadi artımın məkan üzrə balanslaşdırılması və sosial rifahın artırılmasıdır. Beynəlxalq təcrübədə regional siyasət iki əsas model üzrə həyata keçirilir: kompensasiyaedici model və rəqabətqabiliyyətli model. Birinci model zəif inkişaf etmiş regionlara maliyyə dəstəyi və transfer mexanizmləri tətbiq etməklə bərabərsizliyi azaltmağa yönəlir. İkinci model isə regionların daxili potensialının gücləndirilməsinə, innovasiya və klaster yanaşmasının tətbiqinə üstünlük verir. OECD yanaşmasına görə, müasir regional siyasət yalnız subsidiya mexanizmləri ilə deyil, innovativ inkişaf və insan kapitalının artırılması ilə daha effektiv nəticə verir [5].

Azərbaycan Respublikasında regional inkişaf siyasətinin nəzəri əsasları balanslı iqtisadi artım, ərazi bərabərliyi və sosial sabitliyin təmin edilməsi prinsiplərinə söykənir. Müstəqillik dövründə iqtisadiyyatın əsasən paytaxt və iri sənaye mərkəzlərində cəmləşməsi regionlararası fərqlərin artmasına səbəb olmuşdur. Bu isə dövlətin məqsədyönlü regional siyasət həyata keçirməsini zəruri etmişdir. Regional inkişafın nəzəri çərçivəsi dövlət proqramları və strateji sənədlərdə öz əksini tapmışdır. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramları iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun genişləndirilməsi və sahibkarlığın təşviqi kimi istiqamətləri prioritet müəyyən etmişdir. Eyni zamanda Milli Prioritetlər sənədində regionların

iqtisadi potensialının səfərbər edilməsi və inklüziv inkişaf modelinin formalaşdırılması əsas hədəflərdən biri kimi göstərilmişdir [6].

Azərbaycan iqtisadiyyatının struktur xüsusiyyətləri, xüsusilə neft-qaz sektorunun dominantlığı regional strukturun formalaşmasına birbaşa təsir göstərir. Neft gəlirlərinin mərkəzləşməsi iqtisadi fəallığın əsasən Bakı və Abşeron yarımadasında cəmləşməsinə səbəb olmuşdur. Bu baxımdan regional siyasətin əsas vəzifələrindən biri qeyri-neft sektorunun regionlarda inkişafının stimullaşdırılmasıdır. Regional strukturun tənzimlənməsi mexanizmləri Azərbaycanda əsasən investisiya təşviqi, infrastruktur layihələrinin reallaşdırılması, sənaye parklarının və aqroparkların yaradılması, dövlət-özəl tərəfdaşlığı alətləri və fiskal güzəştlər vasitəsilə həyata keçirilir. Bu mexanizmlər regionların iqtisadi potensialını artırmaq və ərazi üzrə sosial-iqtisadi fərqləri azaltmaq məqsədi daşıyır. Beləliklə, Azərbaycan kontekstində regional strukturun tənzimlənməsi mexanizmləri nəzəri baxımdan dövlətin aktiv roluna əsaslanır və balanslı inkişaf modelinin formalaşdırılmasına xidmət edir [7].

## Azərbaycanda Regional Sosial-İqtisadi İnkişafın Struktur Təhlili

Azərbaycan Respublikasında iqtisadi fəallığın məkan üzrə paylanması qeyri-bərabər xarakter daşıyır. ÜDM-in əhəmiyyətli hissəsi Bakı şəhəri və Abşeron iqtisadi rayonunda formalaşır. Bu vəziyyət regional strukturun konsentrasiya meyllərini göstərir və balanslaşdırıcı mexanizmlərin tətbiqini zəruri edir. Aşağıdakı cədvəldə regionlar üzrə ümumi məhsul buraxılışının təxmini bölgüsü təqdim edilmişdir (faizlə).

**Cədvəl 1. Regionlar üzrə ümumi məhsul istehsalının payı (%)**

| Region | Ümumi məhsulda payı (%) |
|---|---|
| Bakı şəhəri | 60,8 |
| Abşeron-Xızı | 8,4 |
| Gəncə-Daşkəsən | 5,9 |
| Quba-Xaçmaz | 4,1 |
| Lənkəran-Astara | 3,8 |
| Qarabağ və Şərqi Zəngəzur | 2,7 |
| Digər iqtisadi rayonlar | 14,3 |

***Mənbə:*** *Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Cədvəl 1-dən göründüyü kimi, ölkə üzrə ümumi məhsulun 60 faizdən çoxu Bakı şəhərində formalaşır. Bu, iqtisadi aktivliyin yüksək səviyyədə mərkəzləşdiyini göstərir. Regionların payı isə nisbətən aşağıdır. Xüsusilə kənd təsərrüfatı yönümlü regionlarda sənaye və xidmət sektorunun zəif inkişafı regional strukturun birtərəfli xarakter daşımasına səbəb olur. Bu struktur regional disbalansların mövcudluğunu təsdiq edir və göstərir ki, tənzimləmə mexanizmləri yalnız sosial layihələrlə deyil, istehsalın şaxələndirilməsi və investisiya təşviqi alətləri ilə də gücləndirilməlidir. Eyni zamanda qeyri-neft sektorunun regionlarda genişləndirilməsi dövlət proqramlarının əsas istiqamətlərindən biri kimi çıxış edir [8].

Regional strukturun formalaşmasında investisiya axınları əsas determinantlardan biridir. İnvestisiyaların məkan üzrə qeyri-bərabər bölgüsü uzunmüddətli inkişaf fərqlərinin yaranmasına səbəb olur.

**Cədvəl 2. Regionlar üzrə əsas kapitala yönəldilmiş investisiyaların payı (%)**

| Region | İnvestisiya payı (%) |
|---|---|
| Bakı şəhəri | 65,2 |
| Abşeron-Xızı | 7,9 |
| Gəncə-Daşkəsən | 6,1 |
| Quba-Xaçmaz | 3,6 |
| Lənkəran-Astara | 3,2 |
| Qarabağ və Şərqi Zəngəzur | 5,4 |
| Digər iqtisadi rayonlar | 8,6 |

***Mənbə:*** *Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Cədvəl 2 göstərir ki, əsas kapitala yönəldilən investisiyaların 65 faizdən çoxu Bakı şəhərində cəmləşmişdir. Bu isə istehsal potensialının və infrastruktur layihələrinin əsasən paytaxt ətrafında reallaşdırıldığını göstərir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonunda investisiyaların nisbətən artması isə post-münaqişə dövründə həyata keçirilən bərpa və yenidənqurma layihələri ilə bağlıdır. İnvestisiyaların mərkəzləşməsi regional strukturun qeyri-proporsional inkişafına səbəb olur və uzunmüddətli perspektivdə regionlararası gəlir fərqlərini artırır. Bu baxımdan regional tənzimləmə mexanizmlərinin təkmilləşdirilməsi investisiya siyasətinin ərazi üzrə daha balanslı şəkildə istiqamətləndirilməsini tələb edir. Mövcud

vəziyyət göstərir ki, fiskal güzəştlər, sənaye parkları, aqroparklar və dövlət-özəl tərəfdaşlığı mexanizmləri regionlara investisiya cəlbini gücləndirməlidir [9].

Regional sosial-iqtisadi inkişafın struktur təhlilini daha da dərinləşdirmək üçün iqtisadi fəaliyyətin sahəvi bölgüsü, məşğulluq strukturunun regional xüsusiyyətləri və institusional tənzimləmə alətlərinin effektivliyi ayrıca qiymətləndirilməlidir. Çünki regional struktur yalnız məhsul istehsalı və investisiya axınları ilə deyil, həm də iqtisadi fəaliyyətin sahələr üzrə paylanması, əmək resurslarının istifadəsi, sahibkarlıq mühitinin inkişaf səviyyəsi və idarəetmə mexanizmlərinin çevikliyi ilə müəyyən olunur. Bu baxımdan regionlar üzrə struktur fərqlərinin daha sistemli təhlili regional siyasətin prioritetlərini dəqiq müəyyən etməyə imkan verir. İlk növbədə qeyd edilməlidir ki, Azərbaycanın iqtisadi rayonları arasında funksional ixtisaslaşma fərqləri mövcuddur. Bakı şəhəri və Abşeron-Xızı iqtisadi rayonu daha çox sənaye, tikinti, maliyyə və xidmət sahələri üzrə ixtisaslaşdığı halda, digər regionlarda kənd təsərrüfatı, emal sənayesi və logistika fəaliyyəti üstünlük təşkil edir. Bu isə regional iqtisadi strukturun çoxqütblü deyil, daha çox mərkəz-periferiya modeli üzrə formalaşdığını göstərir [10].

**Cədvəl 3. Regionlar üzrə sahəvi ixtisaslaşmanın müqayisəli təhlili**

| Region | Aparıcı iqtisadi sahələr | Struktur xüsusiyyəti | Əsas problemlər | Tənzimləmə prioriteti |
|---|---|---|---|---|
| Bakı şəhəri | Sənaye, maliyyə, xidmət, tikinti | Yüksək diversifikasiya, kapital konsentrasiyası | Həddindən artıq mərkəzləşmə | İnvestisiyaların regionlara yönəldilməsi |
| Abşeron-Xızı | Sənaye, logistika, emal | Paytaxtətrafı inteqrasiya olunmuş zona | Bakıdan yüksək asılılıq | Sənaye-logistika klasterləri |
| Gəncə-Daşkəsən | Metallurgiya, sənaye, kənd təsərrüfatı | Qarışıq sənaye-aqrar struktur | Emal zəncirinin zəifliyi | Regional sənaye mərkəzinin gücləndirilməsi |
| Quba-Xaçmaz | Bağçılıq, turizm | Aqrar-turizm yönümlü struktur | Mövsümi gəlirlik | Aqroemal və turizm infrastrukturu |
| Lənkəran-Astara | Çayçılıq, sitrusçuluq | Aqrar ixtisaslaşma | Sənaye sektorunun zəifliyi | Emal sənayesi və logistika |
| Qarabağ və Şərqi Zəngəzur | Tikinti, enerji | Yenidənqurma mərhələsi | İnfrastruktur çatışmazlığı | Yaşıl enerji layihələri |

***Mənbə**: müəllif tərəfindən hazırlanmışdır.*

Regional strukturun qiymətləndirilməsində mühüm göstəricilərdən biri də məşğulluğun sahəvi və məkan üzrə bölgüsüdür. Məşğulluq strukturu regionun iqtisadi potensialı, gəlir formalaşdırma bazası və sosial sabitlik səviyyəsi barədə əhəmiyyətli məlumat verir. Aqrar regionlarda məşğulluğun əsas hissəsinin kənd təsərrüfatında cəmləşməsi məhsuldarlığın aşağı olması və gəlir differensasiyasının dərinləşməsi ilə nəticələnir. Əksinə, sənaye və xidmət sahələrinin inkişaf etdiyi regionlarda əmək bazarı daha dayanıqlı və gəlir imkanları daha geniş olur [11].

**Cədvəl 4. Regional məşğulluq strukturunun analitik qiymətləndirilməsi**

| Region tipi | Məşğulluqda üstün sahə | Gəlir səviyyəsi | Dayanıqlılıq | Struktur risk |
|---|---|---|---|---|
| Paytaxt regionu | Xidmət, sənaye | Yüksək | Yüksək | Kapitalın həddindən artıq cəmlənməsi |
| Sənaye-aqrar regionlar | Sənaye + kənd təsərrüfatı | Orta-yüksək | Orta | Emal zəncirinin natamamlığı |
| Aqrar regionlar | Kənd təsərrüfatı | Orta-aşağı | Aşağı | Mövsümilik |
| Turizm regionları | Xidmət və turizm | Orta | Orta | Xarici tələbdən asılılıq |
| Bərpa regionları | Tikinti və investisiya | Potensial yüksək | Keçid mərhələsində | İnfrastruktur məhdudiyyətləri |

***Mənbə**: müəllif tərəfindən hazırlanmışdır.*

Regional strukturun təhlilində mühüm istiqamətlərdən biri də institusional mexanizmlərin təsirinin qiymətləndirilməsidir. Azərbaycanda regional inkişaf siyasəti əsasən dövlət proqramları, fiskal təşviq alətləri, infrastruktur layihələri, sənaye parkları, aqroparklar və sahibkarlığın dəstəklənməsi proqramları vasitəsilə reallaşdırılır. Lakin bu mexanizmlərin effektivliyi regionların daxili potensialı, yerli idarəetmə səviyyəsi və investisiya mühitinin keyfiyyətindən birbaşa asılıdır. Regional siyasətin səmərəliliyi yalnız resurs yönəltməklə deyil, həmin resursların yerli iqtisadi sistemdə çevrilmə qabiliyyəti ilə müəyyən olunur [12].

Bu baxımdan regional inkişaf siyasətinin institusional əsaslarının möhkəmləndirilməsi dövlət idarəetməsinin çevikliyinin artırılması, hüquqi bazanın təkmilləşdirilməsi və fiskal mexanizmlərin regionların spesifik xüsusiyyətlərinə uyğunlaşdırılması ilə sıx bağlıdır. Sosial-iqtisadi inkişafın balanslaşdırılması məqsədilə regionlar üzrə iqtisadi potensialın düzgün qiymətləndirilməsi, resursların səmərəli bölgüsü və yerli istehsal sahələrinin dəstəklənməsi mühüm əhəmiyyət kəsb edir. Xüsusilə regional inkişafın dayanıqlı xarakter alması üçün dövlət tərəfindən tətbiq olunan təşviq mexanizmlərinin nəticəyönümlü idarə olunması zəruridir [13].

Azərbaycan Respublikasının Konstitusiyasında dövlətin iqtisadi siyasətinin əsas istiqamətləri sırasında sosial rifahın yüksəldilməsi, iqtisadi inkişafın təmin olunması və mülkiyyət münasibətlərinin hüquqi müdafiəsi xüsusi yer tutur. Konstitusion əsaslar regionlararası sosial-iqtisadi fərqlərin azaldılması və vətəndaşların bərabər inkişaf imkanlarının təmin edilməsini dövlətin prioritet vəzifələrindən biri kimi müəyyən edir. Bu hüquqi baza regional siyasətin institusional mexanizmlərinin formalaşdırılması və tətbiqi üçün mühüm normativ əsas rolunu oynayır [14].

Regional inkişaf siyasətinin iqtisadi alətləri sırasında vergi və fiskal təşviq mexanizmləri xüsusi əhəmiyyətə malikdir. Vergi güzəştləri, investisiya təşviqi sənədləri, sənaye və aqropark rezidentləri üçün tətbiq olunan preferensiyalar regionlarda sahibkarlıq fəaliyyətinin genişlənməsinə və investisiya cəlbediciliyinin artmasına şərait yaradır. Vergi Məcəlləsində nəzərdə tutulmuş güzəşt və azadolmalar iqtisadi fəallığın stimullaşdırılması, qeyri-neft sektorunun inkişafı və regionlarda yeni iş yerlərinin yaradılması baxımından mühüm iqtisadi mexanizm kimi çıxış edir [15].

Beləliklə, regional inkişaf siyasətinin institusional mexanizmlərinin effektivliyi yalnız iqtisadi resursların həcmi ilə deyil, həm də hüquqi tənzimləmə sisteminin keyfiyyəti, fiskal siyasətin çevikliyi və dövlət idarəetməsinin nəticəyönümlü təşkil olunması ilə müəyyən edilir. Müasir mərhələdə əsas prioritet regional inkişafın iqtisadi, hüquqi və institusional əsaslarının qarşılıqlı inteqrasiyası əsasında balanslı və inklüziv inkişaf modelinin formalaşdırılmasıdır.

## Nəticə

Aparılmış tədqiqat göstərir ki, sosial-iqtisadi inkişafın regional strukturu Azərbaycanda hələ də yüksək mərkəzləşmə meyli ilə xarakterizə olunur. Ümumi daxili məhsulun və investisiya qoyuluşlarının əsas hissəsi paytaxt və ətraf ərazilərdə formalaşır. Bu isə regionlararası iqtisadi fəallıq, gəlir səviyyəsi və infrastruktur təminatı baxımından fərqlərin saxlanmasına səbəb olur.

Regional inkişaf üzrə həyata keçirilən dövlət proqramları və institusional tədbirlər müsbət dinamika yaratmış, bir sıra regionlarda infrastrukturun yenilənməsi və sahibkarlıq mühitinin yaxşılaşmasına şərait formalaşdırmışdır. Lakin mövcud struktur hələ də balanslı hesab edilə bilməz və iqtisadi aktivliyin ərazi üzrə daha proporsional bölgüsünə ehtiyac qalmaqdadır.

Təhlil göstərir ki, regional strukturun təkmilləşdirilməsi üçün yalnız maliyyə və investisiya axınlarının artırılması kifayət deyil. Əsas prioritetlər kimi qeyri-neft sektorunun regionlarda genişləndirilməsi, sənaye və xidmət sahələrinin şaxələndirilməsi, logistika və nəqliyyat infrastrukturunun inkişafı, innovasiya və klaster yanaşmasının tətbiqi çıxış edir. Eyni zamanda regionların iqtisadi özünüidarəetmə imkanlarının genişləndirilməsi və yerli təşəbbüskarlığın stimullaşdırılması mühüm əhəmiyyət kəsb edir.

Beləliklə, sosial-iqtisadi inkişafın regional strukturunun tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi kompleks yanaşma tələb edir. Balanslı və inklüziv inkişaf modelinin formalaşdırılması üçün dövlət siyasəti investisiya təşviqi, fiskal stimullar, institusional islahatlar

və regional potensialın səmərəli istifadəsi prinsipləri əsasında davamlı şəkildə həyata keçirilməlidir. Bu istiqamətdə sistemli və uzunmüddətli strategiyanın reallaşdırılması regionlararası fərqlərin azalmasına və milli iqtisadiyyatın dayanıqlı inkişafına xidmət edəcəkdir.

## ƏDƏBİYYAT SİYAHISI:


1. Azərbaycan Respublikası. (2021). *2021–2030-cu illər üçün milli prioritetlər haqqında sərəncam*. Bakı. 64 s.
2. Azərbaycan Respublikası. (2019). *Azərbaycan Respublikasında regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2019–2023-cü illər)*. Bakı. 35 s.
3. Məmmədov, Z. (2017). *Sosial-iqtisadi inkişafın dövlət tənzimlənməsi*. Bakı: Elm. 398 s.
4. Babayev, A. (2018). *Regional iqtisadiyyat*. Bakı: İqtisad Universiteti nəşriyyatı. 412 s.
5. İmanov, V. (2019). *Dövlətin regional siyasəti və iqtisadi təhlükəsizlik*. Bakı: Çaşıoğlu. 284 s.
6. Armstrong, H., & Taylor, J. (2020). *Regional economics and policy*. Oxford: Blackwell Publishing. 384 p.
7. Həsənov, R. (2020). *Azərbaycanın regional inkişaf modeli və iqtisadi siyasət*. Bakı: Elm və təhsil. 356 s.
8. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2024). *Azərbaycanın regionları: Statistik məcmuə*. Bakı: DSK.
9. Nuriyev, Ə. (2021). *Regional inkişafın maliyyə mexanizmləri*. Bakı: ADİU nəşriyyatı. 275 s.
10. Barca, F. (2009). *An agenda for a reformed cohesion policy*. Brussels: European Commission. 218 p.
11. Şəkərli, F. (2022). *Regional siyasət və struktur islahatları*. Bakı: Elm və təhsil. 310 s.
12. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2024). *Azərbaycanın regionları: Statistik məcmuə*. Bakı.
13. Əliyev, T. (2016). *Sosial-iqtisadi inkişafın balanslaşdırılması problemləri*. Bakı: İqtisad Universiteti nəşriyyatı. 290 s.
14. Azərbaycan Respublikası. (2023). *Azərbaycan Respublikasının Konstitusiyası*. Bakı: Hüquq ədəbiyyatı. 64 s.
15. Azərbaycan Respublikası. (2024). *Azərbaycan Respublikasının Vergi Məcəlləsi*. Bakı: Qanun.


## STRENGTHENING THE INSTITUTIONAL MECHANISMS OF REGIONAL DEVELOPMENT POLICY


**Rashid Rovshan MAMMADLI**
Baku State University, Doctoral Student
E-mail: reshidmemmedli9@gmail.com



**Abstract:** The article examines the strengthening of institutional mechanisms of regional development policy from both theoretical and practical perspectives. The main objective of the study is to analyze the institutional foundations of regional policy, evaluate the effectiveness of existing governance and regulatory mechanisms, and develop scientifically grounded recommendations for their improvement. Within the framework of the research, the causes of spatial differentiation in socio-economic development are explored based on regional economic theories, and the role of institutional mechanisms in the implementation of state regional policy is assessed. The statistical and structural analysis conducted for Azerbaijan shows that the concentration of economic activity and investment flows mainly in the capital region contributes to the persistence of interregional socio-economic disparities. In this regard, strengthening the institutional mechanisms of regional policy, improving the regional governance system, expanding investment incentive instruments, and promoting the development of the non-oil sector in the regions are of particular importance. The research findings indicate that improving the effectiveness of regional development policy requires the implementation of institutional reforms, strengthening regional governance structures, expanding cooperation between the public and private sectors, and introducing an innovation-driven development model. The implementation of these measures will contribute to balanced regional economic development and ensure sustainable and inclusive growth of the national economy.


**Keywords:** regional development, socio-economic structure, regional policy, investment, economic diversification, balanced development

# УСИЛЕНИЕ ИНСТИТУЦИОНАЛЬНЫХ МЕХАНИЗМОВ ПОЛИТИКИ РЕГИОНАЛЬНОГО РАЗВИТИЯ

**Рашид Ровшан МАМЕДЛИ**
Бакинский государственный университет, докторант
E-mail: reshidmemmedli9@gmail.com

**Резюме**: В статье исследуются вопросы усиления институциональных механизмов политики регионального развития с теоретической и практической точек зрения. Основной целью исследования является анализ институциональных основ региональной политики, оценка эффективности существующих механизмов управления и регулирования, а также разработка научно обоснованных предложений по их совершенствованию. В рамках исследования на основе теорий региональной экономики рассмотрены причины пространственной дифференциации социально-экономического развития, а также оценена роль институциональных механизмов в реализации государственной региональной политики. Проведённый статистический и структурный анализ по Азербайджану показывает, что концентрация экономической активности и инвестиционных потоков преимущественно в столичном регионе приводит к сохранению межрегиональных социально-экономических различий. В этой связи особую значимость приобретает усиление институциональных механизмов региональной политики, совершенствование системы регионального управления, расширение инструментов инвестиционного стимулирования и развитие ненефтяного сектора в регионах. Результаты исследования показывают, что повышение эффективности политики регионального развития требует проведения институциональных реформ, укрепления региональных управленческих структур, расширения сотрудничества между государственным и частным секторами, а также внедрения инновационно-ориентированной модели развития. Реализация данных мер будет способствовать сбалансированному развитию региональной экономики и обеспечению устойчивого и инклюзивного роста национальной экономики.
**Ключевые слова:** региональное развитие, социально-экономическая структура, региональная политика, инвестиции, экономическая диверсификация, сбалансированное развитие.